# RƏFİYEV FAİQ QƏZƏNFƏR OĞLU



22 fevral 1955-ci ildə Füzuli rayonunun Sarıcıq kəndində anadan olmuşdur. 1972-ci ildə Qarakollu kənd orta məktəbini bitirmişdir. 1973-75-ci illərdə Rusiyanın Arxangelsk vilayətində hərbi xidmətdə olmuşdur. Ordudan tərxis olunaraq Plistesk rayonunda milis vəzifəsində çalışmışdır. Sankt-Peterburq şəhərində Ali Hərbi Milis Məktəbinin qiyabi şöbəsinə daxil olan F.Rəfiyev 1984-cü ildə təhsilini başa vuraraq leytenant rütbəsi almış və sahə müvəkkili kimi fəaliyyətə başlamışdır. 1990-cı ildə 20 Yanvar faciəsindən sonra vətənə qayıdaraq Xocavənd rayonunda sahə müvəkkili işləmişdir. Axullu, Tuğ, Qaradağlı kəndlərinin düşməndən qorunmasında qəhrəmanlıq göstərmişdir. Koçbəy kəndi də erməni quldurlarının yuvasına çevrildiyi zaman cəsur döyüşçü Rəfiyev Faiq Qəzənfər oğlu buranı erməni faşistlərindən təmizləmək üçün plan hazırlamış və 1992-ci il yanvarın 10-u plan üzrə döyüşçülərimizin hücumu nəticəsində erməniləri geri çəkilməyə məcbur olmuşlar. Lakin bu döyüş zamanı F. Rəfiyev qəfil düşmən gülləsinə tuş gəlmiş və qəhrəmancasına həlak olmuşdur. Doğulduğu Sarıcıq kəndində dəfn edilmişdir. Ailəli idi. İki qızı yadigar qalıb. Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı Fərmanı ilə Rəfiyev Faiq Qəzənfər oğlu ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülmüşdür. Lökbatan qəsəbəsindəki 166 saylı orta məktəb 1992-ci ildən Milli Qəhrəmanın adını daşıyır.